**AZƏRBAYCAN RESPUBLİKASININ**
**RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ**
**DÖVLƏT DƏNİZ VƏ LİMAN AGENTLİYİ**

AZ1003, Bakı şəhəri, Xanlar küçəsi 2B
Telefon: (+99412) 497 44 05; Faks: (+99412) 497 44 06; Elektron poçtu:info@ddla.gov.az

"07" Avqust 2023-cü il — № 3-27-106/2-648/2023

**Fəaliyyətinə razılıq verilmiş**
**Təsnifat Cəmiyyətlərinə**

Rəhbərlik etdiyiniz Təsnifat Cəmiyyətinin nəzarəti altında tikilməsi planlaşdırılan və Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzməsi nəzərdə tutulan gəmilərin inşasına başlanmazdan əvvəl təsdiqlənmiş müvafiq layihə sənədlərinin razılaşdırılması və Bayraq Dövlətinin yeni tikilən gəmi barədə əlavə tələblərinin olmasına dair Dövlət Dəniz və Liman Agentliyinə müvafiq sorğunun göndərilməsi məqsədəuyğun hesab edilir.

Eyni zamanda gəminin kilinin qoyuluşundan inşası yekunlaşdırılanadək bütün mərhələlərə dair cari vəziyyətini özündə ehtiva edən hesabatlar tələb olunduğu təqdirdə, müvafiq Təsnifat Cəmiyyətləri tərəfindən Agentliyə təqdim olunmalıdır.

Yuxarıda qeyd olunanlar və Dövlət Dəniz və Liman Agentliyi ilə Təsnifat Cəmiyyətləri arasında imzalanmış "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilər üçün qanunla müəyyən edilmiş sertifikatlaşdırılma və xidmətlərin həyata keçirilməsi haqqında" sazişlərdə nəzərdə tutulan tələblər ödənilmədikdə Agentlik tərəfindən yerli və beynəlxalq qanunvericiliyə uyğun olaraq tədbirlərin həyata keçirilməsi təmin olunacaqdır.

**İdarə Heyəti sədrinin müavini**
**vəzifəsini müvəqqəti icra edən** **Emin Aşurov**